# Dövlət müəssisələrinin özəlləşdirilməsi

LALƏ HƏMIDOVA

# Dövlətə Məxsus Müəssisələr: ümumi məlumat

**Hazırda DMM-lər bir çox ölkələrdə, o cümlədən Avropa və Mərkəzi Asiya Regionunda da əhəmiyyətli bazar iştirakçılarıdır.**

Baxmayaraq ki, bir çox ölkələrdə DMM-lərin özəlləşdirilməsi proqramları həyata keçirilmişdir, DMM sektoru bir sıra göstəricilər üzrə yenə də əhəmiyyətli paya malikdir – ÜDM-də gəlirlərin xüsusi çəkisi, ümumi məşğulluqda xüsusi çəkisi, cəmi investisiyalarda xüsusi çəkisi və s.

DMM-lər bu regionda məşğulluq ilə bağlı əhəmiyyətli paya malikdirlər, və əhali üçün vacib olan bir sıra sahələrdə, o cümlədən, kommunal, səhiyyə, nəqliyyat, təhsil və digər bu kimi sektorlarda xidmət göstərirlər.

## Şəkil A: Bəzi Avropa ölkələrində DMM-lərin ÜDM-də çəkisi (%)




Mənbə: SOE FACT Study araşdırması, DB əməkdaşlarının təhlili (2014-2016)

# Azərbaycanda DMM-lərin rolu

**Azərbaycanda DMM-lər vacib iqtisadi və sosial rol oynamağa davam edirlər.**

Onlar bir sıra sahələrdə:

- **iri ixracyönümlü sektorlarda** – neft və qaz, enerji istehsalı və paylanması kimi sektorlarda mühüm paya malikdir;
- su təchizatı, dəmir yolu, hava nəqliyyatı və rabitə kimi **ictimai xidmət sahələrində** də əsas iştirakçıdırlar.

Bu xidmətlərin fasiləsizliyinin və onların keyfiyyətinin monitorinqinin təmin edilməsi dövlətin mülkiyyətçi kimi əsas vəzifələrindən biridir.




Mənbə: DMM-lərin internet saytları, rəsmi statistika, DB əməkdaşlarının apardığı hesablamaları

# DMM: ümumi məlumat

**Azərbaycanda fəaliyyət göstərən DMM-lərin sayı və miqyası ilə bağlı məlumatlar məhdud xarakter daşıyırlar.**

DSK əsasən, Azərbaycanda 2 846 dövlət təşkilatı, qurumu və dövlət səhmli müəssisəsi mövcuddur. Dövlət sektorunu və DMM-ləri təşkil edən bu təsisatlarda təxminən 1.2 milyon insan çalışır ki, bu da ölkədə ümumi məşğulluğun 25%-ni təşkil edir.

**Hökumət ən iri 20 DMM-in fəaliyyətini ümumi qanunvericilik və xüsusi normativ aktlar vasitəsilə tənzimləyir və nəzarət edir.** Eyni zamanda, bu təşkilatlar, o cümlədən ən iri DMM-lər haqqında məlumatlar məhdud xarakterlidir və bir qayda olaraq ictimaiyyətə açıqlanmır.

Belə bir təcrübə hökumətə DMM-lərin fəaliyyətini qiymətəndirməyə imkan vermir, və bazar iştirakçılarının şəffaflıq və açıqlama ilə bağlı gözləntilərini doğrultmur.

Azərbaycanda fəaliyyət göstərən ən əhəmiyyətli 15 DMM-dən, yalnız 6 DMM öz maliyyə məlumatlarını açıqlayır, yalnız 4 şəffaflıq və məlumatların açıqlanması ilə bağlı ölkə qanunvericiliyinin tələblərinə və bazar iştirakçılarının gözləntilərinə cavab verir.

## Şəkil P: Azərbaycanın 15 ən iri DMM-də şəffaflıq vəziyyəti




15 ən iri DMM

Maliyyə məlumatları açıqlanır

Audit yoxlamasından keçmiş maliyyə məlumatları açıqlanır

Mənbə: DB əməkdaşları tərəfindən aparılan təhlil

# Azərbaycanda üç növ DMM mövcuddur:

- səhmdar cəmiyyətləri
- məhdud məsuliyyətli cəmiyyətlər
- xüsusi hüquqi-təşkilati forma

Əksər DMM-lər son 20 il ərzində səhmdar cəmiyyətlərinə çevrilmişlər, lakin xüsusi hüquqi-təşkilati formada yaradılmış bəzi müəssisələr hələ də mövcuddur.

Bunlara bir neçə istehsalat birliyi (Sovet sisteminin mirası) və bir dövlət müəssisəsi – Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) aiddir (tamamilə dövlətə məxsus olan və dövlət tərəfindən idarə edilən kvazi-dövlət şirkəti).

Bəzi DMM-lər: Azərsu, Aztelekom və Bakı Telefon Rabitəsi öz sahələrində kvazidövlət və ya, demək olar ki, inhisarçı statusuna malikdirlər.

**Son illərdə Azərbaycan hökuməti DMM-lərin özəlləşdirilməsi və səhmdar cəmiyyətə çevrilməsi istiqamətində ciddi islahatlara başlayıb.**

Bu islahatların həyata keçirilməsi kiçik və orta DMM-lərin özəlləşdirilməsi, və iri müəssisələrdə idarəetmə və əməliyyatların təkmilləşdirilməsi baxımından qismən uğurlu olmuşdur.

Azərbaycan hökuməti hazırda DMM-lərlə bağlı mülkiyyət və nəzarət funksiyaları, onların səmərəliliyi və dövlət büdcəsinə ayırmalarının artırılmasının istiqamətində çalışır.

# Rəqəmlər



# Dövlət müəssisələri bazasında yaradılmış səhmdar cəmiyyətlərinin illər və sahələr üzrə bölgüsü (Mənbə: www.privatization.az)

| | | Sahələr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| № | **İllər** | Aqrar | Sənaye | Xidmət | Tikinti | Ticarət | Nəqliyyat | Səhiyyə | Cəmi |
| 1 | **1996** | - | 2 | - | - | - | - | - | 2 |
| 2 | **1997** | 211 | 72 | 94 | 19 | 34 | 26 | 0 | 456 |
| 3 | **1998** | 103 | 68 | 69 | 94 | 47 | 112 | 114 | 507 |
| 4 | **1999** | 34 | 15 | 3 | 18 | 5 | 13 | 3 | 91 |
| 5 | **2000** | 8 | 27 | 7 | 34 | 6 | 16 | - | 98 |
| 6 | **2001** | 36 | 101 | 28 | 33 | 5 | 3 | - | 206 |
| 7 | **2002** | 19 | 21 | 16 | 12 | - | 17 | 1 | 86 |
| 8 | **2003** | 5 | 12 | 5 | 8 | - | 6 | - | 36 |
| 9 | **2004** | - | 9 | - | 1 | - | - | - | 10 |
| 10 | **2005** | 3 | 2 | 1 | 1 | - | 1 | - | 8 |
| 11 | **2006** | 2 | 5 | 3 | 1 | - | 1 | - | 12 |
| 12 | **2007** | 7 | 4 | 7 | 20 | 2 | 1 | 2 | 43 |

| | | **Sahələr** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **№** | **İllər** | **Aqrar** | **Sənaye** | **Xidmət** | **Tikinti** | **Ticarət** | **Nəqliyyat** | **Səhiyyə** | **Cəmi** |
| 13 | **2008** | 2 | 1 | 1 | 5 | - | 1 | - | **10** |
| 14 | **2009** | - | 1 | - | 4 | - | - | - | **5** |
| 15 | **2010** | 2 | 2 | 1 | 2 | - | - | - | **7** |
| 16 | **2011** | - | 3 | 3 | 4 | - | - | - | **10** |
| 17 | **2012** | - | - | 1 | 6 | - | - | - | **7** |
| 18 | **2013** | - | - | 1 | 3 | - | 1 | - | **5** |
| 19 | **2014** | 2 | - | 1 | - | 1 | - | - | **4** |
| 20 | **2015** | - | - | - | 1 | - | - | - | **1** |
| 21 | **2016** | | | | | | | | **0** |
| 22 | **2017** | | | | | | | 1 | **1** |
| 23 | **2018** | | 1 | | | | | 1 | **2** |
| **Yekun** | | **434** | **346** | **241** | **266** | **100** | **198** | **22** | **1607** |

## 25.3 Qeydiyyatda olan statistik vahidlərin mülkiyyət növləri üzrə bölgüsü (yanvarın 1-nə)

*Distribution of registered statistical units by types of ownership (1 January)*

Mənbə: stat.gov.az



# Dövlət mülkiyyətində olan müəssisələr (2019)

Mənbə: stat.gov.az



# 2020-Cİ İLİN **yanvar-mart aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

İXRAC İCMALI






# 2020-Cİ İLİN **yanvar-mart aylarında "Azərkosmos" ASC 10,4 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2020 İXRAC İCMALI APREL



2020-cu ilin yanvar-mart aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **24 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **88 faizini** təşkil etmişdir.




2020-ci ildə "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Dəyər |
|---|---|
| ABŞ | 4,5 mln $ |
| Birləşmiş Krallıq | 2,9 mln $ |
| Fransa | 2,0 mln $ |
| BƏƏ | 269 min $ |
| Almaniya | 225 min $ |

# Özəlləşdirmə

2000-ci ilin avqust ayında özəlləşdirmənin II Dövlət Proqramının qəbul edilməsi ilə özəlləşdirmə prosesinin ikinci mərhələsinə start verilmişdir.

**IIci Proqrama** dövlət əmlakının fərdi layihələr üzrə özəlləşdirilməsi,

- müflis elan olunmaqla satış üsulları daxil edilmiş,

- əmək kollektivi üzvlərinə verilən güzəştlər optimallaşdırılmış,

- dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması, restrukturizasiyası,

- özəlləşdirilmiş müəssisələrin dövlət tərəfindən dəstəklənməsi

- infrastruktur sahələrin idarəetməyə verilməsi vasitəsi ilə Dövlət – Özəl Tərəfdaşlığı prinsipinin tətbiqinə yer ayrılmışdır.

# Normativ-hüquqi aktlar



# Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında




Bakı şəhəri, 19 iyul 2016-cı il

№ 1003

Ölkədə iqtisadi fəallığı gücləndirmək və özəl təşəbbüslərə dəstək vermək,

- iqtisadiyyatda zəruri struktur dəyişiklikləri aparmaq və onun şaxələndirilməsini təmin etmək,

- sağlam rəqabət mühiti formalaşdırmaq,

-milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək məqsədi ilə

**dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi** iqtisadi siyasətin mühüm istiqaməti kimi müəyyənləşdirilmişdir.

# 1.Azərbaycan Respublikasının Nazirlər Kabineti:

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin və aidiyyəti digər dövlət orqanlarının təklifləri əsasında:

1.1.1. **orta müddətli dövr ərzində:**

- dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısını müəyyənləşdirsin,
- həmin müəssisələrin restrukturizasiyasını həyata keçirsin və
- onların tabeliyində olan qeyri-profil müəssisə və obyektlərin çıxarılaraq özəlləşdirilməsi üçün tədbirlər görsün;

# Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1.2. **özəlləşdiriləcək dövlət müəssisələrinin sağlamlaşdırılması və onların borclarının tənzimlənməsi** barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. **özəlləşdirmə və idarəetməyə vermə prosesində meydana çıxan sosial problemlərin həlli**nə dair, o cümlədən istehsalat qəzası və peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə və ya bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borcların ödənilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. **dövlət müəssisələrinin özəlləşdirilməsi prosesində Bakı və digər şəhərlərin baş planları nəzərə alınmaqla özəlləşdirilən müəssisələrin yerləşdiyi torpaq sahələrinin sərhədlərinin şəhərsalma qanunvericiliyinə uyğun yenidən müəyyən edilməsi**nə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2**. Müəyyən edilsin ki, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı prioritetlər müəyyənləşdirilərkən, **ilk növbədə regionda rəqabət qabiliyyəti potensialı olan və sosial-iqtisadi inkişafa əhəmiyyətli töhfə verə biləcək fəaliyyəti dayanmış müəssisələrin özəlləşdirilməsinə üstünlük verilir**.

# 3.Azərbaycan Respublikasının Özəlləşdirməyə Nəzarət üzrə Dövlət Komissiyası:

3.1. özəlləşdirmə prosesinə nəzarətin gücləndirilməsi və bu sahədə aşkarlığın təmin edilməsindən ötrü məqsədyönlü tədbirlər görsün;

3.2. dövlət əmlakının özəlləşdirilməsində **şəffaflığın** və **məlumatlandırmanın** təmin edilməsi, həmçinin müvafiq prosedurların **elektron üsulla** gerçəkləşdirilməsi üçün tədbirlər görsün.

# 4.Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi:

4.1. 1.1-ci bəndində nəzərdə tutulan məsələlərə dair təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.2. .1.1-ci bəndi ilə müəyyən olunan siyahıya daxil olmayan, **yerdə qalan dövlət müəssisələrinin və obyektlərinin özəlləşdirməyə açıq elan olunduğunu** və qanunvericiliyə uyğun özəlləşdiriləcəyini geniş ictimaiyyətə və potensial yerli və xarici investorlara müvafiq informasiya vasitələri ilə bəyan etsin;

4.3. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən özəlləşdirilməsi barədə, müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən qərar qəbul edilmiş dövlət əmlakının özəlləşdirilməsi prosesini sürətləndirsin;

# 5. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət mülkiyyətində olan hüquqi şəxslərə tapşırılsın:

5.1. dövlət əmlakından istifadə olunması barədə **xüsusi hesabatın**, eləcə də daşınmaz dövlət əmlakının tərkibindəki dəyişikliklərlə bağlı məlumatların dövlət əmlakının Registrində əksini tapması məqsədilə balanslarında olan əmlak və onun barəsində bağlanılmış əqdlər barədə məlumatların müəyyən olunmuş müddətlərdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim olunmasını təmin etsinlər;

5.2. dövlət əmlakından səmərəli istifadənin, onun qorunub saxlanılmasının təmin edilməsi üçün zəruri tədbirlər görsünlər.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

AZƏRBAYCAN RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ

Bakı şəhəri, 21 oktyabr 2016-cı il

№ 550s

# Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Sərəncami

“Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 iyul tarixli 1003 nömrəli Fərmanının 1.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 iyul tarixli 430s nömrəli Sərəncamının 1.1-ci bəndinə uyğun olaraq:

# Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Sərəncami

1. **"Orta müddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin Siyahısı"** təsdiq edilsin (1 nömrəli əlavə).
2. **"Orta müddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin tabeliyindən çıxarılaraq özəlləşdirilməsi nəzərdə tutulan qeyri-profil müəssisə və obyektlərin Siyahısı"** təsdiq edilsin (2 nömrəli əlavə).
3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi orta müddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin restrukturizasiyasının həyata keçirilməsi baxımından onların tabeliyində olan qeyri-profil müəssisə və obyektlərin özəlləşdirilməsi üçün tədbirlər görsün.

# 1 nömrəli əlavə. Orta müddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahisi

# 1. İri dövlət şirkətləri və səhmdar cəmiyyətləri

"Azərenerji" ASC

"Azərişıq" ASC

“Azərsu" ASC

"Azəristiliktəchizat” ASC

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC

"Azərbaycan Hava Yolları" QSC

"Azərbaycan Demir Yolları" QSC

"Bakı Metropoliteni" QSC

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

"Azəravtoyol" ASC

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC

“Aqrarkredit” QSC Bank Olmayan Kredit Təşkilatı

"Azərbaycan İpoteka Fondu" ASC

"Azərbaycan Beynəlxalq Bankı" ASC (54,96% dövlət)

"Azer-Türk Bank" ASC (84,79 % dövlət)

"AzerGold" QSC

"Azərbaycan Polad İstehsalı Kompleksi" QSC

“Azərbaycan İnvestisiya Şirkəti" ASC

“Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC

“Azərlotereya" ASC

“Təmiz şəhər” ASC

“Azərxalça” ASC

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti

Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti

**2. Azərbaycan Respublikası Prezidentinin işlər idarəsi**

**2.1.** "Azərsuvenir" MMC

**2.2.** “Gülüstan” Sarayı

**2.3.** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qonaq evləri, kənd təsərrüfatı müəssisələri və digər hüquqi şəxslər

**Qeyd. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabellində olan özəlləşdirilməsi qadağan olan müəssisələr siyahıya daxil edilməmişdir.**

**3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

**3.1.** Tibb Baş İdarəsi

**3.2.** Avtonəqliyyat Təsərrüfatı

**3.3.** "Ədliyyə Nəşriyyat Evi" MMC

**Qeyd. Özəlləşdirilməsi qadağan olan islah-əmək və İxtisaslaşdırılmış müalicə-istehsalat müəssisələri siyahıya daxil edilməmişdir.**

| 4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | |
|---|---|
| 4.1. | "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC |
| 4.2. | "Sumqayıt Kimya Sənaye Parkı" MMC |
| 4.3. | Təsərrüfat müəssisəsi |
| 4.4. | İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu |
| 4.5. | "Bakı Biznes Mərkəzi" MMC |

| 5. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | |
|---|---|
| 5.1. | İnnovasiva və Təchizat Mərkəzinin "Azərtibbtəchizat" MMC |
| 5.2. | Azərbaycan Tibb Universiteti |
| 5.3. | İnnovasiya və Təchizat Mərkəzi |
| 5.4. | Tikilməkdə olan Obyektlərin Birləşmiş Müdiriyyəti |
| 5.5. | Ailə Planlanması Məsləhətxanası |
| 5.6. | "Azərsutikinti" Xəstəxanası |
| 5.7. | Səhiyyə Nazirliyinin şəhər (rayon) mərkəzi xəstəxa-naları, şəhər kliniki xəstəxanaları, uşaq xəstəxanaları, doğum evləri, dezinfeksiya stansiyaları və şöbələri, müalicə diaqnostika mərkəzləri, tibb kollecləri, elmi-tədqiqat kardiologiya, profilaktika institutları |
| | **Qeyd. Özəlləşdirilməsi qadağan olan sanitar-epidemio-loji, psixiatriya, psixonevroloji, yoluxucu, onkoloji və dəri-zöhrəvi xəstəliklərin, İÇV-ya yoluxmuşların və QİÇS xəstələrin müalicə və profilaktikası üzrə dövlət müəssisələri siyahıya daxil edilməmişdir.** |

| | |
|---|---|
| **6. Azərbaycan Respublikasının Təhsil Nazirliyi** | |
| **7. Azərbaycan Respublikasının Gənclər və idman Nazirliyi** | |
| **8. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi** | |
| **8.1.** | İdman Cəmiyyəti |
| **8.2.** | A.N.Heydərov adına Respublika Hospitalı |
| **8.3.** | "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzi |
| | **Qeyd. Strukturuna daxil olan və özəlləşdirilməsi qadağan olan dövlət müəssisələri siyahıya daxil edilməmişdir.** |
| **9. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi** | |

# 10. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

"Aqrolizinq" ASC
Təchizat bazası
Azərbaycan Bioloji Kombinatı
Tovuz  Zona Təcrübə Stansiyası
Üzümçülük və Şərabçılıq ETİ və onun təcrübə stansiyaları
"Ağdam Atçılıq Təsərrüfatı" MMC
"Aqromexanika" ETİ XKB
Kənd Təsərrüfatının İqtisadiyyatı ETİ
Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi
Qax rayonu damazlıq ipəkçilik stansiyası
Ağdaş Barama Toxumu Zavodu
Gəncə Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi
Azərbaycan Dövlət Aqrar Universiteti

Baytarlıq Elmi-Tədqiqat İnstitutu və onun dayaq məntəqəsi

Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, onun dayaq məntəqəsi və təcrübi stansiyaları

"Moskva" Taxıl Toxumçuluğu üzrə DKTİM MMC
"Ağstafa rayonu Üzüm Tingliyi üzrə DKTİM "MMC
"Şamaxı rayonu Üzüm Tingliyi üzrə DKTİM " MMC
Beyləqan rayonu "Şəfəq" Taxıl Toxumçuluq üzrə DKTİM MMC
Calaq-Üzüm Əkin Materialları İstehsalı üzrə Müəssisə
"Dilbaz" atçılıq təsərrüfatı MMC
Əkinçilik ETİ
Heyvandarlıq ETİ
Regional aqrokimya laboratoriyaları
Kənd təsərrüfatı istehsalat müəssisələri (MMC-lər)
Zona baytarlıq laboratoriyaları
Rayon baytarlıq idarələri
Meyvəçilik və Çayçılıq ETİ və onun filialları
Tərəvəzçilik ETİ zona təcrübə stansiyaları və onların yardımçı təcrübə təsərrüfatları
**Qeyd. özəlləşdirilməsi qadağan olan fitosanitar nəzarəti xidmətləri siyahıya daxil edilməmişdir.**

# 12. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi

| | |
|---|---|
| "Optika-Mexanika İstehsalat Birliyi" MMC | "İqlim Elmi-İstehsalat Müəssisəsi" MMC |
| "Avtomatik Xətlər" Elmi-İstehsalat Müəssisəsi | "Cihaz İstehsalat Birliyi" MMC |
| "Alov" Zavodu | "Sənayəcihaz" Elmi-İstehsalat Müəssisəsi |
| "Azon Zavodu" MMC | "Peyk Zavodu" MMC |
| "Aqreqat İstehsalat Birliyi" MMC | "Elektron Hesablayıcı Maşınları Zavodu" MMC |
| "Neftqazavtomat Elm-İstehsalat Müəssisəsi’ MMC | Milli Aerokosmik Agentliyi |
| "Bakı Cihazqayırma Zavodu" MMC | Kosmik Cihazqayırma Təcrübi Zavodu |
| "Avia-Aqreqat Zavodu" MMC | Kosmik Cihazqayırma Məxsusi KB |
| "Üfüq İstehsalat Birliyi" MMC | T.İsmayılov adına Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu |
| "Radioquraşdırma" Zavodu | Ekologiya İnstitutu |
| "Dalğa" Elmi-İstehsalat Müəssisəsi | Elmi Tədqiqat Aerokosmik İnformatika İnstitutu |
| "Xaçmaz Kondensator Zavodu" MMC | Xüsusi Konstruktor Texnoloji Bürosu |
| "Şirvan Araz Zavodu" MMC | Elmi-Tədqiqat İnstitutu |
| "Şərq İstehsalat Birliyi" MMC | "Sosial Xidmətlər İdarəsi" MMC |
| "Telemexanika Zavodu" MMC | "Mərkəzi Təminat və Marketinq İdarəsi" MMC |
| Gəncə Maşınqayırma Zavodu | "Təhlükəsizlik və Mühafizə İdarəsi" MMC |
| Tərtər Elektromexanika Zavodu | |

## 13. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC

"1 nömrəli Bakı Avtonəqliyyat Müəssisəsi" MMC

"2 nömrəli Bakı Avtonəqliyyat Müəssisəsi" MMC

"3 nömrəli Bakı Avtonəqliyyat Müəssisəsi" MMC

"4 nömrəli Bakı Avtonəqliyyat Müəssisəsi" MMC

"Nəqliyyat-Servis" MMC

Tədris-Kurs Kombinatı

"Bakı Taksi Xidməti" MMC

Regional nəqliyyat MMC-lər

## 14. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

"Azerkosmos" ASC

"Milli Nüvə Tədqiqatlar Mərkəzi" QSC

Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdində Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzi

"Azərbaijan İnternational Telecom (AzİnTelecom)" MMC

Radio Televiziya Yayımı və Peyk Rabitəsi istehsalat Birliyi

"Azərpoçt" MMC

Dövlət Radiotezliklər idarəsi

Məlumat Hesablama Mərkəzi

İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu

"Azermarka" MMC

"Yüksək Texnologiyalar Parkı - YT Park" MMC

**15. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi**

**16. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi**

**17. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi**

**17.1.** Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

**17.2.** "Bakıdövlətlayihə" İnstitutu

**17.3.** "Azərmemarlayihə" Dövlət Bas Layihə institutu

**18. Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi**

**19. Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti**

**19.1.** "Xüsusi Müalicə-Sağlamlıq Kompleksi" MMC

**19.2.** "Mərkəzi Klinika" MMC

**19.3.** "Gəncə Müalicə Diaqnostika Mərkəzi" MMC

**20. Azərbaycan Milli Elmlər Akademiyası**

**21. Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi**

**21.1.** Azaltemativenerji" MMC

**22. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi**

**22.1.** "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" MMC

**23. Bakı Şəhər İcra Hakimiyyəti**

**24. Sumqayıt Şəhər icra Hakimiyyəti**

**25. Gəncə Şəhər era Hakimiyyəti**

**26. Mingəçevir Şəhər İcra Hakimiyyəti**

**27. Digər şəhər və rayon icra hakimiyyətləri**

# 2 nömrəli əlavə. Orta müddətli dövr ərzində dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin tabeliyindən çıxarılaraq özəlləşdirilməsi nəzərdə tutulan qeyri-profil müəssisə və obyektlərin SİYAHISI

| | | | |
|---|---|---|---|
| **1. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC** | | | |
| **1.1.** | "Portovik" İstirahət evi | Binəqədi | Novxanı-Sarıqava qəsəbəsi |
| **1.2.** | "Sülh" pioner düşərgəsi | Sabunçu | Pirşağı qəsəbəsi, Hüseyn Cavid küçəsi |
| **1.3.** | Mədəniyyət evi, yay zalı | Nəsimi | Üzeyir Hacıbəyli küçəsi, 72 |
| **1.4.** | Vağzal binası | Nəsimi | Neftçilər prospekti, 58 |
| **2. "Azərbaycan Hava Yolları" QSC** | | | |
| **2.1.** | 77 №-li mağaza | Sabunçu | Zabrat qəsəbəsi |
| **2.2.** | Pioner düşərgəsi | Xəzər | Şüvəlan qəs., Almaz İldrım küçəsi, 9, döngə 2 |
| **3. "Bakı Metropoliteni" QSC** | | | |
| **3.1.** | Sağlamlıq Mərkəzinin Sanatoriya-Profilaktoriyası | Sabunçu | Bilgəh qəsəbəsi, Aslan Salahzadə küçəsi, 2 |

| 4. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC | | | |
|---|---|---|---|
| 4.1. | Yelkənli qayıqlar idman kompleksi | Səbail | Neftçilər prospekti, 108 |
| 4.2. | Dənizçilərin pansionatı | Xəzər | Buzovna qəsəbəsi |
| 4.3. | Yay uşaq bağçası | Xəzər | Buzovna qəsəbəsi |
| 4.4. | "Mayak" uşaq bağçası | Nərimanov | Aşıq Molla Cümə küçəsi, 15 A |
| 4.5. | Dalğa uşaq bağçası | Nəsimi | Nizami küçəsi, 135 |
| 4.6. | "Xəzər" uşaq bağçası | Yasamal | Z.Xəlilov küçəsi, 523-cü məhəllə |
| 4.7. | "Yelkən" uşaq bağçası | Xətai | Cavanşir küçəsi, 9 |
| 4.8. | Mərkəzi Dənizçilər Xəstəxanası | Yasamal | İsmayıl bəy Qutqaşınlı küçəsi, 19 |
| 4.9. | Mərkəzi Dənizçilər Xəstəxanasının uşaq poliklinikası | Xətai | Cavanşir küçəsi, 15 |
| 4.10 | Yardımçı təsərrüfat | Pirallahı | Pirallahı qəsəbəsi |
| 4.11 | Təmir-tikinti və istehsalat sahəsi | Səbail | Cənub Buxtası 3 |
| 4.12. | İstehsalat sahəsi | Xətai | A. İsmayılov küçəsi, 14 |
| 4.13. | Radiomerkəzin binası | Nəsimi | O.Hacıbeyli küçəsi, 159 |
| 4.14. | Mərdəkan bağı | Xəzər | Mərdəkan qəs., R.Qasımov küçəsi |
| 4.15. | "Dənizçi" istirahət zonası | Xaçmaz | Müqtədir qəsəbəsi |

| 6. "Azərenerji" ASC | | | |
|---|---|---|---|
| 6.1. | "Bakı İstilik Elektrik Mərkəzi" MMC-nin qış və yay klubu | Xətai | Nobel prospekti, 84 |
| 6.2. | "Gəncə Regional Elektrik Şəbəkəsi" MMC-nin Hacıkend istirahət evi | Gəncə | Hacıkend qəsəbəsi |
| 6.3. | "Gəncə Regional Elektrik Şəbəkəsi" MMC-nin yardımçı təsərrüfatı | Samux | Əhmədbeyli kəndi |
| 6.4. | "Abşeron Regional Elektrik Şəbəkəsi" MMC-nin uşaq bağçası və yataqxanası | Sabunçu | Pirşağı qəsəbəsi |
| 6.5. | "Mingəçevir Regional Elektrik Şəbəkəsi" MMC-nin idman oyunları binası | Mingəçevir | Təbriz döngəsi, 4 |
| 7. “Azərsu” ASC | | | |
| 7.1 | "Birləşmiş Sukanal" MMC-nin yardımçı təsərrüfatı | Göyçay | Göyçay rayonu |

# 8. "Azərbaycan Dəmir Yolları" QSC

- Bakı Vaqon Təmiri Zavodu
- Bakı Demir Yolu Vağzalının mehmanxanası
- Lokomotiv İdman Sağlamlıq Mərkəzinin əmlakı
- 1 nömrəli İxtisaslaşdırılmış Demir Yolu Müəssisəsinin əmlak kompleksi
- Qızılca Qırmadaş Zavodu
- Gəncə Demir Yolu Vağzalının mehmanxana kompleksi
- Bakı Dəmir Yolu Xəstəxanası
- Əncirli Uşaq Demir Yolu Xəstəxanası
- Mərkəzi Demir Yolu Xəstəxanası
- 1 nömrəli Bakı Demir Yolu Poliklinikası
- 2 nömrəli Bakı Dəmir Yolu Poliklinikası

- Kürdəmir Dəmir Yolu Ambulatoriyası
- Lənkəran Demir Yolu Ambulatoriyası
- Ucar Demir Yolu Ambulatoriyası
- Xaçmaz Demir Yolu Ambulatoriyası
- Yevlax Demir Yolu Ambulatoriyası
- Gəncə Dəmir Yolu Xəstəxanası
- Hacıqabul Dəmir Yolu Xəstəxanası
- İmişli Dəmir Yolu Xəstəxanası
- Ələt Dəmir Yolu Xəstəxanası
- Salyan Demir Yolu Xəstəxanası
- "Lckomotiv" istirahət düşərgəsi

| | | | |
|---|---|---|---|
| **9. “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC** | | | |
| **9.1.** | Sumqayıt Sənaye Kombinatı | Sumqayıt | Sumqayıt şəhəri |
| **9.2.** | Hidrogeologi Meliorativ Xidmət İdarəsinin yardımçı təsərrüfatı | Binəqədi | Rəsulzadə qəs., 1285-ci keçid, Biləcəri şosesi, 20 A |
| **9.3.** | Bəhrəmtəpə Demir Beton Zavodu | İmişli | Çaxırlı kəndi |
| **10. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi** | | | |
| **10.1.** | Təsərrüfat müəssisəsinin əmlak kompleksi | Xətai | 2-ci Qaraşəhər küçəsi, 8 |

| | | | |
|---|---|---|---|
| **11. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi** | | | |
| | “2 nömrəli Bakı Avtonəqllyyat Müəssisəsi" MMC-nin: | | |
| **11.2-13** | 13 Keçmiş yarımstansiyanın binası | Binəqədi | Mir Cəlal küçəsi, 1 |
| **11.14.** | Dayanacaq pavilyonu-yeməkxana | Xətai | Nobel prospekti |
| **11.15.** | Qeyri-yaşayış sahəsi | Xətai | Nobel prospekti |
| **12. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| **13. Azərbaycan Respublikasının Təhsil Nazirliyi** | | | |
| **14. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi** | | | |
| **15. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi** | | | |
| **16. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi** | | | |
| **17. Azərbaycan Respublikasının Gənclər və idman Nazirliyi** | | | |
| **18. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi** | | | |
| **19. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** | | | |
| **20. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi** | | | |
| **21. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti** | | | |

# 22. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

| | |
|---|---|
| **Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin yardımçı təsərrüfatı** | İmişli |
| **Sosial İnkişaf İdarəsinin:** | |
| **7 saylı mağaza** | İmişli |
| **5 saylı mağaza** | İmişli |
| **Şəki Firma Mağazası** | Şəki |
| **Quşçuluq yardımçı k/tı obyekti** | Sumqayıt |
| **"Sevil" pioner düşərgəsi** | Zaqatala |
| **Geofizika istirahət zonası** | Xaçmaz |
| **Nabran istirahət zonası** | Xaçmaz |
| **Duruçay istirahət zonası** | Ağsu |
| **Şahdağ istirahət zonası** | Qusar |
| **"Qubek Otel" istirahət zonası** | Balaken |
| **"Şəfa" gecə sanatoriyası** | Pirallahı |

| | |
|---|---|
| "Şəfa" gecə sanatoriyası | Pirallahı |
| İ.Qayıbov adına Təlim İdman Bazası | Sabunçu |
| Hövsan yardımçı kənd təsərrüfatı obyekti | Suraxanı |
| Yardımçı kənd təsərrüfatı obyekti | Suraxanı |
| Quşçuluq Yardımçı kənd təsərrüfatı | Suraxanı |
| Qeyri-yaşayış binası (keçmiş 6 nömrəli uşaq bağçasının binası | Suraxanı |
| Qeyri-yaşayış binası ("M.Hüseynov adına" uşaq bağçasının binası) | Suraxanı |
| Dalğa istirahət zonası | Xəzər |
| Sahil pansionatı | Xəzər |
| Yardımçı kənd təsərrüfatı obyekti | Binəqədi |
| Yardımçı kənd təsərrüfatı obyekti | Suraxanı |
| Qeyri-yaşayış sahəsi (22-ci mərtəbəsi) | Qaradağ |

**“İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

Q Ə R A R I

№ 381 Bakı şəhəri

4 sentyabr 2019-cu il

“**Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında**” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 iyul tarixli 1003 nömrəli Fərmanının 1.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. “İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və digər aidiyyəti olanlarla razılaşdırmaqla, “İri dövlət şirkətlərinə dair vahid məlumat bazası” informasiya sisteminin fasiləsiz, dayanıqlı və təhlükəsiz fəaliyyətini təmin etmək məqsədilə tələb olunan maliyyə vəsaiti ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi “İri dövlət şirkətlərinə dair vahid məlumat bazası” informasiya sisteminin “Elektron Hökumət” İnformasiya Sisteminə inteqrasiyası ilə bağlı zəruri tədbirlər görsün.

# 1.3. İnformasiya sistemi aşağıdakıları təmin edir:

1.3.1. iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində şəffaflığın artırılmasına və səmərəliliyin yüksəldilməsinə nail olunmasını;

1.3.2. iri dövlət şirkətlərinə dair maliyyə, kadr uçotu və daşınmaz əmlak üzrə məlumatların vahid bazada birləşdirilməsini;

1.3.3. iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin müqayisəli təhlil edilməsini;

1.3.4. informasiya sisteminin istifadəçiləri tərəfindən iri dövlət şirkətlərinə dair müvafiq məlumatların real vaxt rejimində əldə edilməsini.

1.4. İnformasiya sisteminin operatoru AR-nın ƏMDK-dir.

1.5. İnformasiya sistemi üzrə xidmətlər AR ƏMDK-nin rəsmi internet səhifəsində dövlət xidmətləri bölməsi, eləcə də “Elektron hökumət” portalı vasitəsilə göstərilir.

1.6. İnformasiya sistemi Azərbaycan Respublikasının mülkiyyətidir.

# Məlumat bazası

[http://www.privatization.az/](http://www.privatization.az/)

Özəlləşdirmə Portalı

[http://emdk.gov.az/](http://emdk.gov.az/)

AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT XİDMƏTİ

[https://e-emdk.gov.az/](https://e-emdk.gov.az/)

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
yanında Əmlak Məsələləri Dövlət Xidməti
Elektron Xidmətlər Portalı


AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT XİDMƏTİ
ƏMDX
AZE | ENG
Xidmət haqqında
Qanunvericilik
Hesabatlar
Müsabiqə və hərraclar
Layihələr
Media
Könüllü fəaliyyət
Vətəndaşlar üçün
Əlaqə
ÜNVAN PORTALI
ÖZƏLLƏŞDİRMƏ PORTALI
ELEKTRON XİDMƏTLƏR PORTALI
İNTERAKTİV XƏRİTƏ
ÇAĞRI MƏRKƏZİ 193
DİQQƏT!
BİLDİRİŞ
Vətəndaşların nəzərinə!



Özəlləşdirmə Portalı
Niyə Azərbaycan
Biznes bələdçisi
Yardım masası
Mənbələr
Elektron Hərrac
Özəlləşdirmə gündəliyi
Özəlləşdirmə layihələri
Özəlləşdirmə gündəliyi 2020-ci il
AZƏRBAYCAN
Ölkə haqqında məlumat.
ÖZƏLLƏŞDİRMƏYƏ AÇILAN YENİ DÖVLƏT ƏMLAKLARI
İNVESTİSİYA MÜSABİQƏLƏRİ
Müəssisələr haqqında məlumatlar.
HƏRRACLAR
Hərraclar haqqında məlumatlar.

AZƏRBAYCAN RESPUBLİ | Google Translate | AZƏRBAYCAN RESPUBLİ | Azərbaycan Respublikası | Özəlləşdirmə Portalı – Az | özəlləşdirilmə - Google

e-emdk.gov.az

ƏMDX

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti

Elektron Xidmətlər Portalı

ANA SƏHİFƏ | ELEKTRON XİDMƏTLƏR

- Qanunvericilik
- İnzibati reqlamentlər
- Ərizə formaları
- Dövlət rüsumu haqqında
- Xidmət haqqı tarifləri
- Elektron imza
- Elektron xidmətlər
- Video çarxlar
- Nəşrlər
- Statistik məlumatlar
- Rəy və təkliflər
- Bildirişlər

**Daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatı və ləğvi**

1. Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu — interaktiv
2. Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu — interaktiv
3. Mülkiyyətçinin arzusu ilə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış daşınmaz əmlaka dair texniki sənədlərin (pasportun və plan ölçüsünün) tərtib edilməsi üçün müraciətin və sənədlərin qəbulu — interaktiv
4. Məhv olmuş daşınmaz əmlakın və onun üzərindəki hüquqların dövlət qeydiyyatının ləğvi — interaktiv
5. Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmət haqqının ödənilməsi — interaktiv
6. Daşınmaz Əmlakın Dövlət Reyestrindən elektron çıxarışın əldə edilməsi — interaktiv
7. Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu — interaktiv
8. Çoxmərtəbəli yaşayış binasında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış almış mənzillərin mövcudluğu barədə məlumatların verilməsi — interaktiv

https://www.e-gov.az/az/services/read/2743/0

Özəlləşdirməyə açıq elan edilən müəssisə və obyektlər barədə məlumatların ictimaiyyətə daha operativ, açıq və şəffaf yolla çatdırılması üçün, həmçinin investorların bu sahədə məlumatlılığının artırılması məqsədi ilə "**Özəlləşdirmə Portalı**" (www.privatization.az) yaradılmışdır.

Portalda Azərbaycanın dünya və regional iqtisadiyyatda oynadığı rol, özəlləşmə sahəsində tətbiq edilən yeniliklər, özəlləşdirmə və idarəetmə sahəsində mövcud qanunvericilik bazası, müvafiq statistik göstəricilər təqdim edilir, habelə investorları maraqlandıran sualların onlayn şəklində operativ cavablandırılması üçün "**onlayn əlaqə**" xidməti də fəaliyyət göstərir.

Prioritet sektorlar daxil olmaqla, dövlət əmlakının idarə olunmasının səmərəliliyinin artırılması, özəlləşdirilməsi və idarəetməyə verilməsi sahələrində yeni yanaşmaların tətbiqinə başlanılmış, özəlləşdirilən dövlət əmlaklarının müstəqil qiymətləndiricilər cəlb olunmaqla bazar prinsipləri əsasında qiymətləndirilməsi və açıq, o cümlədən **elektron hərraclar** və **investisiya müsabiqələri** vasitəsi ilə satışa çıxarılması təmin edilir.

# Dövlət mülkiyyətinin idarə edilməsi sahəsində həyata keçirilən tədbirlər

- daşınmaz əmlakın qeydiyyatı,

- torpaqların elektron kadastr uçotunun aparılması,

- torpaqlardan səmərəli istifadə olunması və mühafizəsi sahəsində qeydiyyat prosesi sadələşdirilmiş, bu istiqamətdə elektron xidmətlərin sayı çoxaldılmış,

- "**Kütləvi çıxarış**" kampaniyaları, "**Mobil ofislər**" fəaliyyətə başlamış,

- vətəndaşın istəyindən asılı olaraq daşınmaz əmlaka dair çıxarışların elektron şəkildə verilməsi təmin edilmiş,

- daşınmaz əmlakın qeydiyyatı sahəsində dövlət rüsumu və xidmət haqqlarını hesablamağa imkan verən Əmlakın Qeydiyyatı Kalkulyatoru istifadəyə verilmişdir.

# www.privatization.az

Dövlət əmlakının özəlləşdirilməsi prosesində indiyədək sənaye, ticarət, nəqliyyat, rabitə və digər xidmət sahələrində 47 minə yaxın kiçik dövlət müəssisə və obyekti, qeyri-yaşayış sahəsi, yarımçıq tikili və nəqliyyat vasitəsi xüsusi mülkiyyətə verilib, **1600-ə yaxın orta və iri müəssisə səhmdar cəmiyyətinə (SC) çevrilib** və onların səhmləri çek və pul hərraclarında satılıb.

Özəlləşdirilmə prosesində 250 mindən çox səhmdar səhm sahibi olmuş, 520 min nəfərdən çox insanı əhatə edən mülkiyyətçilər təbəqəsi formalaşıb.

Ümumilikdə 1,2 milyondan artıq vətəndaş özəlləşdirmədən bu və ya digər formada faydalanmışdır. Yerli investorlarla yanaşı, xarici investorların da iştirak etdikləri təkcə investisiya müsabiqələri vasitəsilə özəlləşdirmə nəticəsində ölkə iqtisadiyyatına təxminən **1.1 milyard manat məbləğdə investisiyalar yatırılmış**, istehsalın həcmi 1.5 milyard manat artmışdır.

# AYİB: İri dövlət şirkətlərinin özəlləşdirilməsi

(Aprel 30, 2020. https://pressklub.az/ekskluziv/)

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Suma Çakrabarti Prezident İlham Əliyevlə keçirdiyi videokonfransda təklif edir ki, rəhbərlik etdiyi qurum Azərbaycanda **dövlət müəssisələrinin kommersiyalaşdırılması və özəlləşdirilməsinə** keçidə kömək edə bilər:

“Fikrimcə, biz növbəti həftə və ay ərzində dövlət müəssisələrinin orta perspektivdə kommersiyalaşdırılmasına, özəlləşdirilməsinə keçmək istəyirik. Bu, dövlət investisiya holdinqi vasitəsilə edilə bilər. Biz dövlət-özəl tərəfdaşlığı düsturu üzərində hökumətlə qanunvericilik sahəsində artıq işləyirik. Həmçinin, Azərbaycanın yeni İnkişaf Korporasiyasının yaradılması istiqamətində çalışırıq. Bir sözlə, işləri məcrasına salmaq istəyirik. Əlimizdən gələni edirik ki, Azərbaycanda və digər ölkələrdə böhrandan sonra bərpa baş versin və bu, mümkün qədər tez olsun.”

Azərbaycanda rabitə və kommunal sektor dövlət şirkətləri tərəfindən idarə olunur. Neft gəlirlərindən böyük pay alan, habelə xarici maliyyə qurumlarından dövlət zəmanətli iri kreditlər almış bu sahələrdə davamlı modernləşdirmə tədbirləri həyata keçirilib. Amma hökumətin gözləntiləri özünü doğrultmayıb.

"Azərsu", Azərenerji", "Azəriqaz" ASC-lər, AZAL Dövlət Konserni, Bakı Metropoliteni, Dövlət Neft Şirkəti büdcəyə yük olaraq qalır. Onların büdcə qarşısında illik öhdəlikləri ilə büdcədən aldıqları investisiya xərcləri arasında kəskin disbalans var. Yəni, bəzən verdiklərindən daha çox vəsaiti investisiya xərci kimi geri alırlar. Əhalidən yığılan kommunal haqların, investisiya layihələrində, xarici kreditlərin xərclənməsində şəffaflığın aşağı səviyyədə olması başlıca problem olaraq qalır.

Azərbaycanın 10 milyard dollara çatan xarici borcunun əsas hissəsini də bu qurumların aldıqları dövlət zəmanətli xarici kreditlər təşkil edir.

# Diskussiya





DMM özəlləşdirilsin

DMM özəlləşdirilməsin

# Özəlləşdirmənin müsbət cəhətləri

- **İnvestorları cəlb edilməsi**. DMM çox vaxt qazanc vermir və zərərlidir. Səbəblər: zəif idarəetmə, məhdud büdcə vəsaiti. Özəlləşdirmə yığılmış problemləri həll etmək və istehsal həcmini artırmaq üçün vəsait yığmağa kömək edir.
- **Yenidənqurma**. Büdcənin dəstəyi ilə yalnız müəssisənin infrastrukturunu qorumaq mümkündür. Bu kifayət deyil, daim yeniləmə lazımdır, əks halda həm işçilər, həm də xidmət olunan ərazidə yaşayan insanlar təhlükə altındadır.
- **Yeni idarəetmə üsulları**. Şirkətdəki yeni sahiblər və ya səhm sahibləri təşkilatın səmərəliliyini və gəlirliliyini artıracaq tədbirlər görə bilər və öz təklif ləri edə bilərlər.
- **Yeni texnologiyaların tətbiqini asanlaşdırması**. Vəzifəli şəxslər sabah haqqında düşünməyə meylli deyillər və gələcəyə istiqamətli əlavə pul xərcləməkdən çəkinirlər. Biznes nümayəndələri riskə daha çox hazırdırlar və bürokratik rəsmiyyətlərlə bağlı deyillər.
- **Yeni bazarlara çıxışı**. Texniki məhdudiyyətlər biznes coğrafiyasının genişlənməsinə mane ola bilər. Yenə səbəb, vəzifəli şəxslərin riskdən və əlavə sərmayələrdən yayınmağa çalışmasıdır.
- **Nəzarətə qənaət**. Təbii inhisarlar bir çox obyektlərdən ibarətdir ki, bunlar fərdi şəxsə verildiyi zaman da dövlət nəzarəti altında qalır və ya hətta rəsmi baxımdan mülkiyyətində olur.

# Özəlləşdirmənin mənfi cəhətləri

- **Qiymətlərin artması problemi həll olunmur**, inhisar sahibləri tarif artımına lobbiçilik edirlər. Mülkiyyətin dəyişdirilməsi buna heç bir şəkildə təsir etmir.
- **Müəssisəni aldıqdan sonra sahibi maddi-texniki bazanın inkişafına yatırımları azaltmaqla qazancı artırmağa çalışır**. Dövlət orqanları müəssisəni dəstəkləmək məcburiyyətində qalırsa, xüsusi sahibinin belə bir vəzifəsi yoxdur.
- **Sosial infrastrukturun dağıdılması**. Dövlət və ya bələdiyyə mülkiyyətindəki inhisarçı müəssisələr işçilərin, məktəblərin, uşaq bağçalarının və s. evlərin tikintisinə alınan pulun bir hissəsini xərcləyirlər. Şəxsi əllərə təhvil verilməsi bu xərclərin rədd edilməsinə səbəb olur, onlar təsirsiz sayılır.
- **Özəlləşdirmə çox vaxt vahid iqtisadi kompleksi parçalamaqla həyata keçirilir**, sahiblər arasında qarşıdurmalar yaranır, vahid iqtisadi kompleksin fəaliyyətini məhv edir və ya mane olur, rəsmi olaraq bir neçə müəssisəyə bölünür.
- Təbii inhisarların təsadüfən parçalanması yolu ilə özəlləşdirmə elektrik enerjisi sənayesində olduğu kimi **qiymət və tariflərin daha da artmasına səbəb olur**. Məsələn, istehlakçılar vasitəçi kimi fəaliyyət göstərən satış təşkilatlarının xeyrinə əlavə haqq ödəməyə məcbur olurlar.
- İdarəetmə effektiv deyilsə, **dövlət vacib obyektlərin saxlanmasına pul xərcləməli olacaq**. Əvvəllər qazanc şəxsi əllərdə olacaq və dövlət üçün əlçatmaz olacaq.

# Mənbələr:


- Azərbaycan Respublikası: Dövlətə məxsus Müəssisələrdə Korporativ İdarəetmə və Mülkiyyət. Dünya Bankı, 2017
- Dövlət mülkiyyətinin idarə edilməsinin ölkənin davamli inkişafinda rolu, http://emdk.gov.az
- "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin Qərarı. 381 Bakı şəhəri, 4 sentyabr 2019-cu il. https://cabmin.gov.az/az/document/3982/
- İri dövlət şirkətlərinin özəlləşdirilməsi gündəmə gəldi. Azərbaycana xarici sərmayə lazımdır. Aprel 30, 2020.
- Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmani. Bakı şəhəri, 19 iyul 2016-cı il, № 1003
- Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Sərəncami. Bakı şəhəri, 21 oktyabr 2016-cı il, № 550s
- "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasinin Nazirlər Kabineti Qərari. № 381 Bakı şəhəri , 4 sentyabr 2019-cu il
- Ixrac Icmali -2020. Iqtisadi Islahatların Təhlili və Kommunikasiya Mərkəzi
- https://pressklub.az/ekskluziv/
- https://fed.az/az/dovlet/azerbaycanin-bezi-dovlet-muessiseleri-ozellesdirilecek-79370
- www.stat.gov.az
- www.privatization.az
- http://emdk.gov.az/photos/shares/old/SP246az.pdf